# LGBT

## CİNSİ AZLIQLAR

## İSLAMİ MÖVQE VƏ MÜALİCƏ TƏKLİFİ!

İSLAMIN MÜDAFİƏSİ

SAHİB ƏSƏDOV

**LGBT - cinsi azlıqlar, İslami mövqe və müalicə təklifi!**

**Giriş**:

Əziz həmvətənlərimiz! Haqqında danışacağımız mövzu müxtəlif qrup cinsi azlıqlar haqqındadır. Bu mövzuda çox danışılsa da, biz məsələni Quran, mötəbər hədislər, eyni zamanda müasir elmin və sağlam ağılın tələbi çərçivəsində bəhs və təhlil edəcək, eyni zamanda da cinsi azlıqlara və bəzi əxlaqi pozuntulara İslami çözümləri təqdim edəcəyik. Dinimiz haqqı, həqiqəti ortaya çıxarmaq gərəkdikdə bizə utanmaq gərəkmədiyini öyrədir. Lakin, biz yenə də çox açıq mövzulara girmədən birbaşa qoyulan məsələləri bəhs və təhlil edəcəyik. Düşünürük ki, belə bir araşdırmaya xüsusi bir ehtiyac duyulurdu. Xüsusən də ölkəmizdə günü-gündən "çılğın azadlıq şüarları"nın çoxaldığı bu günlərdə belə bir zərurət daha da yüksək olaraq qalır. Ölkəmizdə LGBT haqları kimi bir haqqı təbliğ edən bəzi qərb dairələri bu kimi mövzuların, azadlıq şüarlarının yayılmasında maraqlıdırlar. Kitabda aşağıdakı məsələlərdən danışılacaqdır:

**1 -** LGBT sözünün mənası nədir?
**2 -** LGBT üzvləri xəstə sayılırlarmı?
**3 -** LGBT üzvlərinə İslami münasibət necə olmalıdır?
**4 -** Homoseksuallığın zərərləri.
**5 -** İslamda cinsi dəyişməyin hökmü nədir?
**6 -** LGBT probleminə qarşı İslami həll yolu.

## 1 - LGBT sözünün mənası nədir?

İlk sual budur? "LGBT" nədir? Bu termin cinsi azlıq növlərindən dörd növün (lezbiyan, gey, biseksual, transseksual və ya transgender) adlarının baş hərflərindən götürülmüşdür. “LGBT” ifadəsi bütün cinsi azlıqlar haqqında fikri izah etmək üçün 1980-ci illərdən sonra məhşurlaşmağa başladı. Çünki, bir çox cəmiyyətlərdə onlara verilən cinsi məzmunlu adlar heç də xoş qarşılanmır. Elə götürək bizim ölkəmizi; Məsələn, əgər onlara "geylər topluluğu" deyilərsə, sıravi insanların əksəriyyəti bunu qəzəblə qarşılayarlar. Lakin, LGBT üzvü deyildikdə ilkin olaraq həmin qədər qəzəb yaranmır, bəzi insanlar heç sözün mənasını anlamırlar, yaxud diqqət başqa yerə yönəlir ki, bu adın qoyulmasının əsas məqsədlərindən biri də budur. Qeyd olunan hətta cinsi azlıq sözünün işlənməsi belə şüuraltı olaraq insanlarda bu tayfa haqda yazıqlıq, şəfqət və rəhmət hislərini oytmağa hesablanmışdır desək, heç də yanılmarıq.

## 2 - LGBT üzvləri xəstə sayılırlarmı?

Bu, ən geniş müzakirə mövzularından biridir. Bu mövzu LGBT üzvlərinə qarşı istər ölkəmizdəki, istər də dünyadakı mənfi münasibətin müsbətə doğru dəyişilməsinə, yaxud pis münasibətin azalmasına birbaşa xidmət edən mövzulardandır. Çünki, əgər onlar isbat etməyə çalışsalar ki, "bu insanda təbii bir haldır" ,

hətta "normal bir seçimdir, insan haqqıdır", "yaxud düzələn bir şey deyil" və s. o zaman homoseksuallıq əməli bir çox cəmiyyətlərdə normal bir hala çevriləcəkdir və artıq bəşər övladı bir-birinə cinsi maraq göstərən iki kişi, yaxud iki qadına normal baxacaqdır. Lakin, məsələnin araşdırma müstəvisində ortaya bir neçə fikirlər çıxır və görəsən bunlardan hansı doğrudur?!

**Birinci iddia:** Bu bir psixoloji xəstəlikdir və sonradan yad təsirlərlə yaranır. (Bu yad təsirlər haqda qarşıda danışacağıq). Əgər insan istəsə və iradə nümayiş etdirsə, bu xəstəliyə qalib gələ bilər.

**İkinci iddia:** Bu xəstəliyin hormon pozğunluğu və ya hormon dəyişikliyi ilə ortaya çıxdığını deyənlərin iddiasıdır.

**Üçüncü iddia:** Homoseksuallıq sadəcə şəxsi seçimdir və xəstəlik deyil - deyənlərin iddiasıdır. Onlar cinsi sapmaların xəstəlik olması fikirlərini qətiyyətlə inkar edirlər.

Bu və digər fikirlər LGBT üzvləri və ya cinsi azlıqlar haqqında ölkəmizdə geniş yayılmış əsas fikirlərdir desək yanılmarıq. Bəzən onların özləri də özləri haqqında bu fikirlərdən birini səsləndirə bilərlər.

Biz də bu fikirlərdən homoseksuallığın sonradan yaranma pis, əxlaqsız bir vərdiş olduğu qənaətindəyik. Həmçinin, bunu da əlavə olaraq deyirik ki,

homoseksuallığın xəstəlik adlandırılmasının bizim üçün elə də bir əhəmiyyəti yoxdur. Bizə bilməyimiz bəs edir ki, bu pis bir vərdiş və böyük bir günahdır! **İstəsən de ki, xəstəlik deyil! Yaxşı… razıyıq, xəstəlik deyil, əxlaqsızlıqdır!** Əgər insan iradə və əzmkarlıq nümayiş etdirərsə, Allahın iznilə bu pis əməldən, pis vərdişdən qurtula bilər.

**Homoseksuallığın xəstəlik olduğunu deyənlər** içində də onları bu xəstəliyə görə üzürlü hesab edib onlara üzürlər axtaranlar da az deyil. Əgər homoseksuallığın xəstəlik olduğu iddia edildikdə onlara üzrxahlıq etmək aspekti qəsd olunursa, biz bununla razı deyilik. Amma, şəkk yoxdur ki, insanda asılılıq yaradan pis vərdişlərin xəstəlik həddinə çatması da danılmaz bir faktdır. Lakin, Allahın iznilə ölümdən başqa hər bir xəstəliyin şəfası vardır. Bu haqda söhbətin sonunda danışmaq istərdik. Lakin, müasir dünyada hansısa xəstəliyin əxlaqi dəyişikliklərə yol açması, bədəndə şiş və yaralar şəklində ortaya çıxmaması onun xəstəlik olmaması anlamına da gəlmir. Xüsusən də böyük qüvvələrin azadlıq idealları ilə əlaqədar olan cinsi sapıqlıqların azadlıqları uğrunda mübarizənin nəticəsi olaraq homoseksuallığın ümumdünya xəstəliklər siyahısından çıxarılması dünya güclərinin əlində çox asan bir işdir. Homoseksuallığın xəstəlik olmadığını deyənlərə bu qədər fikir bildiririk. Baxmayaraq ki, bir çox ölkələrdə bu gün də homoseksuallığa xəstəlik kimi baxılır. Elə ölkəmizdə də xəstəlik kimi baxılır, üstəlik əxlaqsızlıq kimi də bilinir.

Təsəvvür edin, bu haqda Azərbaycan dilində yazılmış məqalələrdən birini oxuduğumuz zaman homoseksuallıq xəstəlikdirmi deyə başlıq görürük, oxumağa davam edirik, lakin səthi yazılardan başqa bir şey görmürük, yalnız sonda bu cümlə ilə kifayətlənirlər ki, o da zahirən deyəsən elə ən güclü arqumentləri hesab olunurmuş:

"Homoseksuallığın xəstəlik olmadığı 1974-cü ildə Amerika Psixiatriya Assosasiyası tərəfindən açıqlanmışdır". Buna əsasən də növbəti cümlədə belə yazılıb: "Yəni homoseksuallıq psixoloji bir xəstəlik deyildir". (Məqalə: ilmə.az saytı. Homoseksuallıq xəstəlikdir?).

İndi isə baxaq görək, bu məsələ dünyada bütünlüklə qəbul edilmiş bir həqiqətdirmi? Yoxsa dünyanın bəzi mərkəzləri tərəfindən insanlara homoseksuallığı adi göstərmək üçün qəbul edilmiş azsaylı qərarlardırmı? Nəyə görə bu mərkəzlər insanlara homoseksuallıq və onun fəsadlarından xilas etmək əvəzinə, bu problemə düşən insanlara rahat ruhda, hüzur içində, problemsiz həyat yaşamaqda yardım etmək əvəzinə, əksinə onların homoseksuallıqda qalmasına zəmin yaradırlar?

**Hormon pozğunluğu** məsələsi artıq elmi cəhətdən sübutlarla inkar edilir. Homoseksualizm müdafiəçilərinin bu azğınlığı normal göstərmək üçün irəli sürdükləri ən məşhur iddiaları, guya, hormonal pozğunluqdur. Onlar “Testestoron çoxdur, estrogen azdır, bu yazıq insanlar

nə etsinlər?" kimi iddialar irəli sürərək, homoseksuallara dəstək verməyə çalışırlar, ancaq bu iddiaların heç bir elmi əsası yoxdur. Bu hormonların az və ya çox olması insanın cinsi seçiminə və əxlaqına əsla təsir göstərmir.

Estrogen miqdarının çox olması bir insanın əxlaqsızlığına səbəb deyil. Qadınlarda estrogenin miqdarı kişilərdən qat-qat çoxdur, ancaq bu hal qadınları əxlaqsızlığa aparıb çıxarmır. Qadınlarda estorgenin miqdarı kişilərdən dəfələrlə çox olması heç bir yanlışlığa səbəb olmur, eləcə də kişilərdə bu hormonun çoxluğu heç bir əxlaqsızlığa əsas deyil. Bir sözlə, bu əxlaqsızlığın günahkarı hormon deyil.

Bir kişi qəza və ya xəstəlik nəticəsində necə ki qolunu, gözünü itirir, eləcə də cinsi orqanını da itirə bilər. Tarix boyunca müharibələrdə və ya xədimedilmə hadisələrində cinsi orqanını itirən nə qədər kişilər olub. Bu vəziyyətdə testosteron hormonu həmin kişilərin bədənində ifraz olunmur, ancaq onlarda cinsi istəksizlik meydana gəlir, əxlaqsızlıq yox. (ovqat. com)

**Şəxsi seçim məsələsi:** Hormon məsələsi son zamanlar artıq bir çox LGBT üzvləri tərəfindən də inkar edilir. Artıq onlar bunu öz istəkləri ilə etdiklərini dilə gətirirlər. Amma söhbət hansısa bir asılılıqdan gedirsə, şəkk yoxdur ki, səbəb bir yox, bir neçə ola bilər.

Bu məsələ haqda Azərbaycan dilində məqalə yazan, onları müdafiə edənlərdən biri də bu problemi xəstəlik

olmadığını, hormon pozğunluğu da olmadığını, öz-özünə yarana biləcəyini də inkar etdikdən sonra belə yazır:

"LGBT üzvü olan şəxs, bunu bilərək, istəyərək şüurlu şəkildə edir". (könül əzədulla qızı) O zaman sual yaranır ki, əgər onlar bu əməlləri şüurlu şəkildə edirlərsə, deməli bu əməlin qeyri-əxlaqi olduğunu onlara başa salaraq onlara bu əməlləri tərgizdirmək mümkün deyilmi? Lakin, görəsən homoseksualların özləri bu fikirlə razıdırlarmı? Bu da çox mühüm sualdır.

Həmçinin, özünü homoseksual hesab edən şəxslərin formalaşmasında görəsən ailənin və tərbiyənin rolu nə qədərdir? Şəkk yoxdur ki, tərbiyənin rolu mühümdür. Azərbaycanı tərk etmiş bir homoseksual geniş bir məqalədə suallara cavab verir və uşaq vaxtı atasını itirdiyini etiraf edir, anasını da 19 yaşında ikən itirdiyini deyirdi. Deməli, həyatda valideyn qayğısından məhrum qalmış şəxslərdən biri olsa da, hazırda Azərbaycanın ən aktiv homoseksual təbliğatçılarından biridir. Digər homoseksuallar da araşdırıldığı zaman, ciddi ailə problemləri yaşamış, qızların içində böyümüş, hətta az yaşlarında cinsi təcavüzə məruz qalmış şəxslərin də az olmadığının şahidi oıa bilərik.

Azərbaycanda homoseksualizmə xəstəlik kimi yanaşılır və bir çox hallarda bunun müalicəsinə cəhd göstərilir.

Homoseksuallıq iki cür olur – eqosintonik və eqodistonik. Eqosintonik homoseksuallar özləri ilə barışıblar, buna normal baxırlar. eqodistonik homoseksuallar isə bu haldan qurtulmağa çalışırlar və bu durumları ilə heç cürə barışa bilmirlər, hətta xilas olmaq üçün həkimə də müraciət edirlər.

## Gizli bir səbəb (cinlər):

Bir çox insanların bilmədiyi səbəblərdən biri də homoseksuallığın cinlər vasitəsilə yarana biləcəyidir. Cinlərin varlığı, onların insanlara mənfi təsirləri haqda məlumatı olmayanlar təbii ki, bu məlumatı qəribə qarşılaya bilərlər. Lakin, təcrübədən məlumdur ki, cinlər vasitəsilə insanların ailələri dağılır, insanlara sehr, cadu edilir, insanlar xəstəliklər tapır, müsibət və bəlalara düçar edilirlər. Cadu edilmiş, sehr olunmuş bir şəxsə Quran ilə müalicə edildikdə onun çıxardığı qəribə səsləri, etdiyi qeyri-adi hərəkətləri heç bir kimsə inkar edə bilməz. Buna elmi izah yoxdur. Rəsmən cin insanın dilindən danışır. Cinlər həqiqətən də var. Bu sahədə olan mütəxəssislər həmçinin qeyd edirlər ki, bəzən cinlər insanlara aşiq olurlar. Aşiq olan cin insana öz səhvi ucbatından əziyyət verə bilir. Hətta insanı homoseksual həddinə də çatdıra bilir. Qeyd olunur ki, qadın cinlər qadınlara aşiq olur və onlara qarşı lezbianların cinsi hərəkətlərini edərək təcavüz edirlər. Bu aşiq cin o qadına və ya qıza əsasən yuxularında öz bacısının və ya rəfiqəsinin cildində gəlməklə görünür. Yaxud da onda

bu cinin musallat olması səbəbilə artıq öz cinsindən olan qadınlara qarşı cinsi istək yaranır, hətta qadınlara aşiq olduğunu görə bilir.

Kişi cinlər də bunun kimi kişilərə və oğlanlara aşiq olurlar. Bu cinlər həmin kişilərə və ya oğlanlara lutilik yoluyla təcavüz edirlər. Hətta insanlardan bəziləri bu cinlərin onları ehtiraslandırması səbəbilə yoldan azır və rəzil əməllər edirlər.

Bəzi insanların ilk dəfə homoseksual meyillərinin məhz bu cür ya yuxuda, ya da digər bənzər formalarda yaranmasını etiraf etmələri bu səbəb üzərində düşünməyi gərəkdirir. Bu isə bizə Allahın bu ayəsini xatırladır: “şeytan sizin açıq-aşkar düşməninizdir" (əl-Əraf, 22).

**Bir şübhəyə cavab:** *Bəziləri heyvanlarda olan homoseksual davranışları bəhanə gətirib deyirlər ki, görürsünüzmü heyvanlarda da bu hal baş verir? Buna cavab odur ki:*

**Birincisi:** İnsan heyvan deyil. Çünki, insan bu hislərə qalib gələ biləcək ağıl və iradəyə sahibdir. Heyvanlar isə ağıl sahibi deyillər. Məsələ nə yerdə olursa olsun insanın özünü heyvanlarla müqayisə etməsi doğru deyil. Ələxsus da əgər bu hal heyvanlarda nadir halda baş verirsə, deməli ağlı, dərrakəsi, əxlaq normaları olan olan insanlarda bu halın baş verməsi heç bir vəchlə normal ola bilməz.

**İkincisi:** Heyvanlarda baş verən bu kimi halların heç də məhz cinsi istək səbəbilə baş vermədiyini iddia edən qərbli araşdırmaçılar da az deyil. Onlardan Sara Hartvil, Dr. Çarlis Sokeraydis, Simon Levay və s. kimi araşdırmaçıları göstərmək olar. Onlar itlər, meymunlar, delfinlər, bəzi həşəratlar və s. canlılar arasında bu kimi halların baş verməsinin əsil səbəbini tam başqa amillərlə əlaqələndirmişlər. Belə misallar çoxdur. Bunlardan biri heyvanların özlərini dişi heyvan qarşısında güclü göstərmək cəhdidirsə, digər amil isə bəzi heyvanlarda dişi ilə mübasibətdə olan erkək heyvana dişidən xüsusi iyin hopmasıdır ki, erkək heyvan məhz digər erkək heyvana hopmuş bu iydən dolayı ehtiraslanıb ona qarşı bu hərəkəti edir. Bu və digər iddialar göstərir ki, heyvanlar arasında baş verən homoseksual əlaqələr heç də heyvanların homoseksual istəklərindən əmələ gəlmir.

- *Xəstəlik mövzusunda sonda bir iddiaya da cavab vermək istərdik.* Ümumiyyətlə homoseksualların anadangəlmə bu cür olmasını iddia etmək, Allahı ittiham etməyə qapı açır və dinsizlərin "Allah onları niyə belə yaradıb onlara əzab verir?!" kimi batil suallarına səbəb ola bilir. Halbuki, həqiqət bunun əksidir. Bu cür eynicinslilik meyilləri sonradan yaranır. Bu səbəbləri də izah edildi. Tərbiyədəki boşluqlar, şəxsi seçim və s. amillər demək olar ki, əsas amillərdir. Allah heç kəsi əzab vermək üçün yaratmayıb, əksinə Özünə ibadət edilməsi üçün yaradıb. Allah bir qulu

günaha məcbur edib sonra da buna görə ona əzab verəcək deyil, nə də bu onun ədalətinə uyğun deyil. Əksinə insanlar özləri bu yolu seçirlər. Uca Allah buyurur: "Rəbbin heç kəsə haqsızlıq etməz!" (əl-Kəhf. 49). Başqa bir ayədə belə buyurmuşdur: "De: “Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?" (Əraf. 28).

## 3 - LGBT üzvlərinə İslami münasibət necə olmalıdır?

Bəzi insanlar İslamda LGBT üzvlərinə münasibətin pis olmasına qarşı çıxır, homoseksuallığın insan azadlığı olması fikrini isə dəstəklədiklərini bildirirlər. Halbuki, onlar LGBT üzvlərinə nəinki İslamda, demək olar ki, bütün dinlərdə münasibətin yaxşı olmadığını müşahidə edə bilərlər. Lakin, bu heç bir LGBT üzvünə əsas vermir ki, İslama qarşı çıxış etsin. Əksinə, belə bir şəxs anlamalı, başa düşməlidir ki, İslam onu xilas olmağa səsləyir. Hətta, homoseksuallıq dinlərdən kənar olan bir çox insanların da qəbul etmədiyi bir anlayışdır. Təəssüflər olsun ki, müasir dünya düzənində bu kimi cinsi sapıqlıqların təbliğatı gedir və bu əməlləri yaxşı göstərməyə çalışır, dünyada homoseksuallığın normal qəbul edilməsinə, şəxsin azadlıq kriteriyalarına daxil edilməsinə cəhd edirlər. LGBT üzvlərinə İslami münasibətə gəldikdə isə, şəkk yoxdur ki, bu əməl böyük günahlardan hesab olunur. Bu əməl Uca Allahın buyurduğu kimi Lut peyğəmbərin qövmünün çirkin

əməllərindən sayılır. Bu çirkin əməlləri tarixdə ilk dəfə Lut qövmü etmişdir. Uca Allah Qurani-Kərimdə buyurmuşdur: *"Lutu da elçi göndərdik. Bir zaman o, öz qövmünə demişdi: “Sizdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz? Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz, həddi aşmış adamlarsınız”. Onun qövmünün cavabı: “Onları yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır”– deməkdən başqa bir şey olmamışdı. Biz onu və ailəsini xilas etdik. Yalnız arvadından başqa. O, geridə qalanlardan oldu. Biz onların üstünə daşlardan yağış yağdırdıq. Bir gör günahkarların aqibəti necə oldu." (Lut, 80-84).*

Başqa ayələrdə Uca Allah buyurur: "(Ey Muhəmməd!) Sənin canına and olsun ki, onlar sərxoşluqları içində veyl-veyl gəzirdilər. Günəş doğanda qorxunc səs onları yaxaladı. Oranın altını üstünə çevirdik və onların üzərinə odda bişmiş gil daşlar yağdırdıq. Şübhəsiz ki, bunda başa düşənlər üçün dəlillər vardır. Həqiqətən, onlar Məkkədən Şama gedən yolun üstündə yaşayırdılar". (əl-Hicr, 62-76).

Homoseksuallıq İslam dinində zinadan daha betər günah hesab edilir. İslamda lutiliyin cəzası ölümdür. Lakin, bu cəza açıq-aydın bu işləri görənlərə verildiyi kimi, bu cəzanı da kimsə özbaşına vermir, bu cəza İslam dövlətində, şəriətin tətbiq olunduğu bir dövlətdə hakim və ya onun təyin etdiyi məsul şəxs tərəfindən verilə bilər. Başqa müsəlmanlar bu cəzanı tətbiq etmirlər. Ona görə

də müasir ölkələrdə homoseksuallar rahat gəzib dolaşır və öz fikirlərinə dəvət edirlər. Həmçinin, demək olar ki, şəriət tətbiq olan ölkədə homoseksuallğın təbliğatı olmur, homoseksuallar isə açıq fəaliyyət göstərə bilmirlər deyə çox cəzadan kənarda qalırlar. Yəni, yaxalarını ölümdən qurtarırlar. Çünki, İslam dini aşkarda olan əməllərə görə cəzalandırır. Gizlində edilən cinayətlər isə şahid və ya dəlil-sübutla isbat olunmalıdır. Yenə də İslam dini bütün günah sahibləri kimi bu günahı edən şəxsləri də tövbəyə dəvət edir. Kim ki, Rəbbi ilə səmimi olub tövbə edərsə, bu günahdan tamamilə sıyrılar, peşman olar və bir daha qayıtmazsa, Allah onu bağışlayar. Necə ki, Uca Allah buyurmuşdur: *"Qullarıma mənim bu sözümü de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!” (əz-Zümər, 53).*

İbn Abbasdan (radıyəllahu anhumə) rəvayət olunur ki, Allah Elçisi buyurmuşdur: "Lut qövmünün əməlini edən kimsəni Allah lənətləmişdir. Lut qövmünün əməlini edən kimsəni Allah lənətləmişdir. Bunu üç dəfə dedi". (Əhməd, 2915; Şueyb əl-Arnavut "Müsnəd"in təhqiqində "həsən" hesab etmişdir).

Həmçinin, İbn Abbasdan (radıyəllahu anhumə) rəvayət olunur ki, o dedi: Allah Elçisi buyurdu: "Hər kimi ki, Lut qövmünün əməlini edən görsəniz bunu edəni və əməli etdiyi şəxsi də öldürün". (Tirmizi, 1456. Əbu Davud,

4462. İbn Macəh, 2561; şeyx Albani "Səhih ət-Tirmizi"də bu rəvayəti "səhih" hesab etmişdir).

*Homoseksual şəxsin cinsi təcavüz etdiyi şəxs iki halda hədisdəki hökmdən kənarda qalır. Yəni ona cəza verilmir.*

**Birincisi**, əgər təhdid altında (döyülmə və ya öldürülmə təhdidi) bu işi görərsə.

**İkincisi**, təcavüz edilən şəxs öz razılığı ilə olsa belə yetkinlik yaşına çatmamış uşaq olarsa. Sadəcə bu halda münasib cəza ilə ədəbləndirilməlidir.

<u>Homoseksuallığın cəzası haqda İslam alimlərindən bir neçə görüş varid olmuşdur;</u> İslam alimləri bu əməldə israr edən lutinin qətlində ittifaq etmişlər. Lakin, onun qətlinin necəliyi haqda ixtilaf etmişlər.

**1 -** Bəziləri demişlər ki, homoseksual ölənə kimi daşqalaq olunmalıdır. Bəziləri isə evli ilə subayı ayırmış, evlinin daşqalaq, subayın isə şallaq cəzasına çarpdırmağı dəstəkləmişlər.
**2 -** Bəziləri isə homoseksualın yaşadığı yerin ən yüksək yerindən atılmasını, ardınca da daşqalaq olunmasının gərəkdiyini demişlər. Bu İbn Abbasın görüşüdür.
**3 -** Bəziləri demişlər ki, odda yandırılmalıdır. Bu imam Əlinin görüşüdür, Əbu Bəkr də bu görüşü götürmüşdür.
**4 -** Bəziləri demişlər ki, hakimin uyğun gördüyü şəkildə döyülərək cəzalandırılmalıdır.
**5 -** Doğru olan isə qılıncla boynunun vurulmasıdır.

- Yüksək yerdən atılmaq ibn Abbasın ictihadıdır. O bu rəyi Lut qövmündə Allahın lutiliyə (homoseksuallığa) görə təyin etdiyi cəzadan götürmüşdür.
- Odda yandırmaq İslama müxalifdir. Çünki, odla yalnız Allah əzab verə bilər.
- Daşqalaq (rəcm) isə evli zinakar haqqında varid olmuşdur. Bu əməlin ayrı cəzası var.
- Döyməyə gəldikdə isə bu Lut qövmünün əməlini edənlər haqqında peyğəmbərin hədisinə müxalifdir.

Sonra alimlər homoseksuallığın zinadan daha şiddətli əməl olub-olmaması haqda üç rəy demişlər:

**1 -** Əbu Bəkr, Əli ibn Əbu Talib, Xalid ibnil-Vəlid, Abdullah ibniz-Zubeyr, Abdullah ibn Abbas, Malik, İshaq ibn Rahaveyh, Əhməd, ondan gələn iki daha səhih rəvayətdə, Şafi, iki rəyindən birində demişlər ki, homoseksuallığın cəzası zinakarlığın cəzasından daha şiddətlidir. İstər evli, istər də subay olsun, bütün hallarda cəzası qətldir.

**2 -** Şafii məzhəbinin zahirində olan görüşə görə və Hənbəli məzhəbinin görüşündə (imam Əhməddən gələn bir rəvayətə görə) zinakar və homoseksualın cəzası eynidir. Yəni, evli olan daşqalaq olunur, subay isə şallaqlanır.

**3 -** İmam Əbu Hənifənin (rahimahullah) görüşünə görə isə homoseksualın cəzası zinakarın cəzasından daha aşağıdır, bu da onu təzir etməklə (cəza ilə ədəbləndirməklə) olur. Əbu Hənifə ilk dəfə baş verən homoseksuallıq halına ölüm cəzası görmür, təzir hökmü görür. Lakin, təkrarlandığı halda ölümü hədd olaraq icazəli görür (Fəthul-Qadir, 4/151; Haşiyətu İbn Abidin, 4/27). "Təzir" şəri termin olub şəxsdən-şəxsə dəyişən cəza növüdür. İslam fiqhi kitablarında təzirin (cəza ilə ədəbləndirmənin) növləri haqda ətraflı bəhs edilmişdir.

Artıq izah olundu ki, səhih hədislərə əsasən homoseksualın cəzası ölümdür. Ümumən homoseksualın qətlindən məqsəd bu çirkin əməldən çəkindirmək, bu əmələ qarşı nifrət yaratmaq və cəmiyyəti bu rəzil əxlaqdan qorumaqdır. İbnul-Qeyyim (rahimahullah) demişdir: "Lutilik (homoseksuallıq) ən böyük fəsadlardan biri olduğu üçün, onun cəzası da dünya və axirətdə ən böyük cəzalardandır". ("Cavabul-Kəfi" kitabı).

**Bir şübhəyə cavab:** *bəziləri İslamın homoseksuallığa qarşı tətbiq etdiyi cəzanın insanın azadlığına, hüquqlarına, şəxsi seçiminə qarşı hörmətsizlik olduğunu* bildirirlər, onlara necə cavab vermək olar?

**Birincisi:** Artıq qeyd olundu ki, bu cəza İslam qaydalarına tabe olan İslam dövlətinin qanunudur və bu qanun ölkənin rəhbəri, yaxud onun məsuliyyət verdiyi şəxs tərəfindən verilir. Bu qərar İslam dövlətində nə

sıravi şəxslər tərəfindən icra edilmir, nə də digər özbaşınalıq halları ilə icra edilmir. Bu qərarın icrasından öncə dövlətin həmin şəxsə tövbə etməyə fürsət vermək səlahiyyəti də var. Allahın qanunlarına tabe olmaq istəməyən şəxs həmin dövlətdə yaşamaya bilər. Lakin, əgər İslam dövlətində yaşayarsa, o dövlətin qanunlarına və əxlaq normalarına hörmətlə yanaşmalıdır. *Bütün dövlətlərin qnunlarında bir qırmızı sərhədləri var.* Həmin sərhədlər aşıldığı zaman həmin dövlət ən şiddətli tədbirlərə baş vura bilər. Bu sərhəd siyasi, ictimai, iqtisadi və əxlaqi sərhədlər ola bilər. Bu gün də Amerika kimi inkişaf etmiş bir ölkədə ölüm hökmü öz qüvvəsindədir. Əgər məsələ ölüm hökmünün özünə etiraz etməkdirsə, bu dünyanın bir çox ölkələrində var.

**İkincisi**: Yox, əgər etiraz homoseksuallığa görə verilən bir hökmündən gedirsə, o zaman artıq izah edildi ki, o insanların bu əməlin üstünün açılmamışdan öncə islah olunmaq fürsətləri var. Qeyd etdiyimiz kimi, həmin cəza yalnız İslam dövlətinin qanunları tətbiq olunan yerdə rəsmi şəkildə icra edilə bilər, bu, ayrı-ayrı şəxslərin müdaxiləsi ilə edilən bir məsələ deyil. Cəmiyyətin əxlaqını bu və digər yad, zərərli ünsürlərdən qorumaq üçün dövlət İslam qanunları ilə homoseksualı cəzalandırır, bir neçə cəza olduğu təqdirdə belə hallar müsəlman cəmiyyətində itir və ya çox azalır. Cəzadan da məqsəd budur.

**Üçüncüsü:** Muhəmməd peyğəmbərin ﷺ bəzi hallarda ağır cəza tələb edən şəxslərə üzür axtarması,

hətta onların gəlib peyğəmbərin hüzurunda özlərinə cəza tələb etmələri halında "bəlkə belə olub, bəlkə elə olub" deyə cinayətin, günahın baş verməməsinə, yaxud cəzanı yüngülləşdirici səbəblər axtarması və bu qəbildən olan sualları verməsi ona dəlalət edir ki, İslamda təyin olunan cəzalardan məqsəd heç də bütün cinayət, yaxud günah sahiblərini linç edib əzab vermək deyil. Belə düşünmək rəhmət dini olan İslamın uca məqsədlərindən uzaqdır!

Əgər məqsəd hər qanunu pozan kimsəyə əzab vermək olsaydı, peyğəmbər ﷺ cəzaları şübhə və üzürlər axtararaq dəf etməyi əmr etməzdi. Peyğəmbər ﷺ buyurmuşdur: "Cəzaları şübhələrlə dəf edin" (Sünən ət-Tirmizi. 1424). Yəni, müsəlmanların rəhbərləri, alimləri və qazilərindən olan əmr sahiblərinə vacibdir ki, cəzanı haqq edən bir əməl iddiası olduqda buna dair şəkk-şübhə varsa, bu cəzanı tətbiq etməkdən uzaq dursunlar. Əgər hakimə görə bu əməl şübhə olmadan və aydın bir şəkildə isbat olmazsa, o zaman bu hökm verilmir və haqqında iddia olunan şəxsi digər ədəbləndirmə metodları ilə ədəbləndirirlər. Belə birinin zinakar olduğu iddia olunubsa, isbat olunmadığı təqdirdə daşqalaq edilmir, oğru oduğu iddia edilibsə əli kəsilmir və s. Həmçinin şəriətdə çirkin əməllərə məcbur edilən şəxslərə də bu cəzalar verilmir. Məcburiyyət üzür sayılır.

- **Daha bir şübhəyə cavab:** *"İslamda homoseksuallıq var" deyirlər, buna necə cavab vermək olar? Bəziləri şübhə kimi iddia edirlər ki,*

*Quranda homoseksuallıq deyil, təcavüz qadağan edilib. Hətta Lut qövmünə bəlanın homoseksuallığa görə deyil, təcavüzlərə görə gəldiyini iddia edənlər var. Belə insanlardan bəziləri də deyirlər ki: hədislərdə homoseksualın cəzası qeyd olunsa da, bu cəza haqda Buxari və Müslimdə bir hədis gəlməyib. Hətta bəziləri daha da irəli gedərək iddia ediblər ki, guya homoseksuallıq peyğəmbərin olduğu cəmiyyətdə o qədər normal bir hal olub ki, guya haşa peyğəmbər ailəsinə qədər homoseksuallar daxil olub çıxa bilirdilər.*

**Cavab:** SubhənAllah! Çox qəribə bir etirazdır. Birinci iddia edilir ki, Quranda homoseksuallıq qadağan olunmayıb. Belə iddia edənlər ya sadəcə nəfslərinə uyan, ya da özləri bu tayfaya mənsub olanlardır. Gəl indi sən onların bu haqda ayələrdən xəbərdar olmalarını müzakirə et. Necə ki, araşdırma zamanı bu haqda məsələni Fransada müdafiə edən bir gənc məscid imamının olduğunun şahidi olduq. O homoseksuallar üçün xüsusi məscid təşkil etmiş və orada imamlıq edirdi. Bir çox müsəlmanlar isə məscidin Allah evi olduğunu, xüsusi homoseksual məscidinə ehtiyac olmadığını deyərək haqlı şəkildə onu tənqid edirdilər. Hələ bu homoseksual məscid imamı etiraf edirdi ki, o bir çox İslami elmlərdən xəbərsizdir, işin əhli deyil. Lakin nədənsə LGBT mövzusunu yaxşı və dəqiq bildiyini hesab edirdi. O da bu şübhədə qeyd olunan kimi Quranda "lut qövmü" olaraq adı keçən əxlaqsız,

homoseksual qövmün əslində ilahi cəzaya homoseksuallığa görə deyil, təcavüzə görə düçar olduqlarını iddia edirdi. Təbii ki, belə də etməliydi. Axı özü də bu tayfanın mənsubu idi. Başqa İslami mövzuları hç də yaxşı bilmədiyini etiraf edib sırf bu mövzudan "yəqin" olmaq əslində özü bir cavabdır. Tarix boyunca slam dünyasında bu cür iddiaları yalnız şəriəti təhrif etmək istəyənlər etmişlər. Quranda açıq-aydın homoseksuallıq haqda danışılıb və bu əməlin nə qədər çirkin olduğu bəyan edilib, onların Allahın qəzəbinə, bəlasına düçar olmaları qeyd edilib. Quranda deyilir: "Lutu da elçi göndərdik. Bir zaman o, öz qövmünə demişdi: “Sizdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz? Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz, həddi aşmış adamlarsınız”. (əl-Əraf, 80-81). Ayədə hər şey açıq-aydın yazılmışdır.

- Qaldı ki, cəzanın hədislərdə gəlib Buxari və Müslimdə keçməməsinə, həmin hədislər mötəbər yolla gəlibsə, bu artıq bəs edir. Hədis alimləri və ya müsəlmanların heç bir alimi deməyib ki, hədis Buxari və Müslimdə yoxdursa, o hədis mötəbər sayılmır. Bunu yalnız öz nəfsinə uyğun bu məsələni təhrif etmək istəyən kimsə iddia edə bilər. Bu haqda hədislər "Sünəni Əbu Davud", "Sünən ət-Tirmizi", "Sünən ibn Macəh", Əhmədin "Müsnəd"i və başqa hədis kitablarından olan mənbələrdə mötəbər yollarla rəvayət olunmuşdur. Hədisin mətni bu qədər hədis

kitabında keçmiş ikən iki hədis kitabında olmaya da bilər. Yüzlərlə hədislər var ki, "Səhih əl-Buxari" və "Səhihi Müslim"də yoxdur. Buna baxmayaraq, ümmət əsrlərdir o hədislərə əməl edir, əhkam və sünnələri o kitablardan götürürlər.

- Peyğəmbərin ﷺ zamanında homoseksuallığın normal bir hal olmasını iddia edənlər yalançıdırlar. Onların peyğəmbər ﷺ ailəsinə o əməllər üzərində olduqları halda daxil olmalarını haqda iddia da batildir. Buna heç bir sübut yoxdur. Yəni peyğəmbərin ﷺ zamanında olan xunsə (qadına bənzər kişi) qismində olan şəxslərin o əməllərlə məşğul olmasını isbat edən fakt bilmirik. Yalnız bəzi mənbələrdə qadın-kişi əlaməti bilinməyən (xunsə) bir şəxsin mövcudluğu haqda rəvayətlər mövcud olsa da, onu zərərsiz zənn edildikləri üçün, haqqında pis əməllərlə məşğul olmadığı düşünüldüyü üçün müəyyən bir müddət qadınların arasına gəlməsinə icazə verilmişdir. Həmin şəxs qadınlara bənzədiyindən dolayı həm ona möhtac birisi kimi yardım edilirdi, həm də qadınlara qarşı cinsi bir istəyinin olmadığı dünülürdü. Elə ki, Peyğəmbər ﷺ onun bir qadını vəsf etməsini eşidir, onun qadınlara bənzəməsinə baxmayaraq qadınlara cinsi istəyi olduğunu düşünərək bir daha qadınların məclisinə gəlməməsini əmr edir və həmin şəxs bir daha qadınların məclisinə buraxılmır. Halbuki, onu yazıq, ehtiyac sahibi

birisi kimi, zahirən də qadına bənzədiyi üçün qadınların arasına buraxırmışlar. Üstəlik də pis niyyətli biri olmadığını zənn edirdilər, lakin peyğəmbər ﷺ onun bir cümləsini eşidir və onun bir daha qadınlara qarışmamasını əmr edir. Bu haqda hədis "Səhih əl-Buxari" əsərində varid olan (5235) nömrəli hədisdir və Ummu Sələmədən (Allah ondan razı olsun) rəvayət olunmuşdur. İmam Əhməd də Müsnədində (25226) nömrəli rəvayətdə bu hadisəni rəvayət etmişdir. Qurani-Kərimdə Nur surəsi 31-ci ayədə qadınların yanlarında hicab geyinməsi gərəkməyən şəxslərdən danışılır, onlardan: التابعين غير أولى الإربة من الرجال اؤ الطفل الذين لم يظهروا على عورات النساء - yəni: *"yaxud ehtirasını itirən kişi xidmətçilərdən, yaxud qadınların çılpaqlığını hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər"* (Nur. 31) Bu ayədə həm uşaqlardan, həm də kişilərdən olub ehtirasını olmayan və ya ehtirasını itirmiş şəxslər غير أولى الإربة sözü ilə ifadə edilmişlər. Qeyd edilən hədisdəki şəxs də belə ehtirası olmayan şəxslərdən hesab edilmişdi. Lakin, qadlnları vəsf edən adi bir cümləsini eşidən peyğəmbər onun bu şəxslərdən olmadığına qərar verərək onun qadınların arasına daxil olmasına qadağan qoyur. Məşhur təfsirçi ibn Cərir ət-Təbəri Quran ayəsində keçən, ərəbcəsi də qeyd olunan "*ehtirası olmayan şəxslər"* haqda demişdir: "O kəslər ki, sizdən yemək yeməyə bir şey götürmək

üçün yanınıza gəlib sizdə yemək yeyirlər, onlardan kişi cinsindən olanların qadınlara qarşı heç bir ehtirası yoxdur, nə onların qadınlara ehtiyacı var, nə də onları istəmirlər". Başqa bir cümləsində onların ağlında problemləri olduqlarını da qeyd edir, sonra bu qism insanlara qadınların yalnız sırğası, boyunbağı və bilərziyinin görünə biləcəyi, digər zinətlərinin görünməsinin icazəli olmadığını qeyd edir. (Bax: Təbərinin təfsiri. 19/161).

Fayda üçün qeyd edək ki, İslam dininin fəqihlərinə (şəriət alimlərinə) görə "xunsə" kəsdir ki, onun həm qadın, həm də kişi cinsi orqanı var. Yaxud da onun heç bir cinsə aid cinsi orqanı yoxdur. Sadəcə olaraq həmin yerdə subaşına çıxması üçün bir dəliyi var". Xunsələrin də iki növü var. Bir qismi (xunsə muşkil) yetkinlik yaşına çatdıqları zaman onda nə kişilik, nə də qadınlıq əlamətləri aşkar olunmaz. İkinci növ isə (xunsə ğeyri-muşkil) o kəsdir ki, onda kişilik əlamətləri daha çox nəzərə çarpır. (Daha ətraflı bax: Küveyt fiqhi ensiklopediyası: 21/20). Qarşıda yenə bu mövzuya toxunacağıq.

- Həmçinin bəziləri minlərlə İslam alimləri içərisindən bir nəfər tapıb deyirlər ki, bəs filan alim belə düşünüb. Elə adamı deyirlər ki, o daim bir çox məsələlərdə İslam alimlərinə müxalif rəy götürüb, şəz (ittifaqa müxalif) fikirləri ilə tanınıb.

Halbuki, İslam alimlərinin bu məsələdə vahid görüşü hər kəsə məlumdur.

- **Başqa bir məsələ:** *Kim belə əməlləri arzu etsə axirətdə də ona bu kimi (homoseksual) əməllər qadağan olacaq?*

**Cavab:** bəli, axirətdə də ona belə əməllər qadağan olacaq. Çünki cənnətdə günah yoxdur və yalnız halal ləzzətlər olacaqdır. Uca Allah buyurur: "Orada nə boşboğazlıq, nə də günah olmaz". (Tur. 23). Bu əməl dünyada günah olduğu üçün cənnətdə də belə bir əməl olmayacaqdır.

## 4 - Homoseksuallığın zərərləri:

QİÇS xəstəliyi ilk dəfə homoseksuallar arasında meydana çıxmışdır. Hətta, bu xəstəliyə homoseksualların xəstəliyi kimi baxılırdı. Abdullah ibn Ömərdən rəvayət olunur ki, peyğəmbərimiz Muhəmməd ﷺ buyurmuşdur ki:

"Əxlaqsızlığın yayıldığı və açıq-aşkar edildiyi elə bir qövm yoxdur ki, onların əcdadlarının başlarına gəlməyən ağrı-acılı xəstəliklər və (kütləvi) taun xəstəlikləri onların başına gəlməsin". (Səhih əl-Cami, 7970).

Bu hədis həqiqətən də Muhəmməd ﷺ peyğəmbərin sözlərinin nə qədər doğru olduğunu göstərir. Dünyada yayılmış əxlaqsızlıq nisbəti artdıqca əvvəllər görülməmiş xəstəliklər də artır. Dünyanın başına bəla olan xəstəliklərdən biri də məhz QİÇS xəstəliyidir, xəstəlik insanları ölümə aparan, acı və iztirablı ölümə aparan xəstəliklərdən biridir və bu xəstəlik ilk dəfə Allahın qadağan etdiyi homoseksuallıq əməlini edənlər arasında peyda olmuşdur.

Doğrudan da Peyğəmbər ﷺ doğru söyləmişdir. Respublika QİÇS-lə Mübarizə Mərkəzindən verilən məlumata görə BMT-nin HİV / QİÇS üzrə Birgə Proqramına (UNAIDS) görə, hazırda dünyada 38 milyon HİV ilə yaşayan insan var. (e-tibb.az saytı. Məqalə: Dünyada HİV-lə yaşayan 38 milyon insan var).

Bu dəhşətli xəstəliyin səbəbi homoseksuallıqdır. Bu qorxulu ədədə bir baxın. Bu ədəd, Azərbaycan əhalisinin təxminən dörd qatına bərabər bir saya bərabərdir. Bu xəstələrin yarısı afrikalıdır. Allah istəyib ki, insanlara bu mundar əməli etməyin nəticəsini göstərsin.

Bu gün az adam, HİV virusunun ortaya çıxmasının ilk illərində səbəb olduğu xəstəliyə GRID (Geylə əlaqəli immunitet pozğunluğu) - "Gay immunitet bozukluğu" deyildiyini xatırlayır, çünki ilk yoluxanların hamısı "homoseksual" idi. Digər bir ümumi ad "Gay Xərçəng" idi. Yalnız virus heteroseksual qadınlar arasında biseksual və inyeksion narkotik aludəçiləri və bunlar

vasitəsilə kişilər arasında siyasətçilərin köməyi və gey təşkilatlarının təzyiqi ilə yayılandan sonra xəstəliyin adı "QİÇS" adlandırıldı.

ABŞ-da 1981-da AİDS epidemiyası başlayanda, "gay hərəkatı" liderlərinin səyləri ilk növbədə xəstəliyin yayılmasının qarşısını almağa deyil, cəmiyyətdən onun mövcudluğunun həqiqətini gizlətməyə və homoseksuallığı tamamilə normal və təhlükəsiz həyat tərzi kimi tanımağa yönəldilmişdir. Gey lobbisi, bu xəstəlik və homoseksuallıq arasındakı əlaqəni ictimai şüurdan çıxartmaq üçün çox səy göstərdi, amma tibbi ədəbiyyatda kişilər arasındakı seks yenə də bir nömrəli risk faktorudur. ([1] Ceffri Satinover. Homoseksuallıq və Həqiqət Siyasəti... - Çörəkçi Kitabları, 1996-02-01. - 424 s. - ISBN 9781441212931. pro-lgbt.ru saytı, "Qiçs və homoseksuallıq").

Bu barədə daha ətraflı məlumat almaq üçün pro-lgbt.ru saytında yerləşdirilmiş "Qiçs və homoseksuallıq" adlı məqaləni oxumaqla dünyadakı cinsi yolla keçmiş infeksiyaların təhlükəsi və qorxunc statistik nəticələrindən bəziləri ilə tanış ola bilərsiniz.

Bunlar yalnız homoseksuallığın bəzi tibbi zərərləri haqda bilgilərdir. Homoseksuallığın ən böyük zərərləri isə onun mənəvi və ya psixoloji zərərləridir. İnsanın fitrətinə zidd olan bu cür çirkin əməllərdən insan nə qədər uzaq olarsa, o qədər öz ruhunu və mənəviyyatını qorumuş olar. Homoseksuallığın tibbi zərərləri haqda

onlarla məqalələr var. Lakin, bu araşdırmamızda bu məsələləri qeyd etməyi məqsədəuyğun hesab etmirik və bununla kifayətlənirik.

## 5 - İslamda cinsi dəyişməyin hökmü nədir?

İslam dinində cərrahiyyə əməliyyatı vasitəsilə cinsiyyəti dəyişmək icazəli deyildir. Bu Allahın yaratdığını dəyişməkdən hesab edilir və şəriətin mütləq dəlillərinə əsasən bu cür cinsi dəyişmək haram hesab edilir. Qurani-Kərimdə Nisə surəsinin 119-cu ayəsində şeytanın Allaha bu sözləri deməsi qeyd olunmuşdur: "və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm”. (Nisə. 119).

Peyğəmbər ﷺ buyurmuşdur: "Allah özünü qadınlara bənzədən kişilərə və kişilərə bənzədən qadınlara lənət etmişdir". (Səhih əl-Buxari, 5886).

İslamda insanın sonradan yaranan daxili meyilləri deyil, şəxsin yaradılışı və bu yaradılışla ağlı əsas daxili meyilləri əsas götürülür. Məsələn, əgər Allah bir insanı erkək cinsində yaradıbsa, o şəxsdə sonradan öz cinsinə qarşı meyil yaranarsa, bu günaha meyil, yanlış mühit və s. bir çox səbəblərdən ola bilər ki, bu haqda artıq əvvəldə danışıldı. İnsan sonradan onda əmələ gələn cinsi meyillərə qarşı əzmkarlıqla mübarizə apararaq bu hislərə qalib gəlməli və bu meyilləri öz cinsini dəyişmək üçün bəhanə etməkdən uzaq durmalıdır. Madam ki,

onun cinsi orqanı kişidir, deməli o insanda kişi cinsi və kişilik hissi mövcuddur və sonradan yaranmış daxili meyillərə qalib gəlmək mümkündür. Hökm olaraq da, alimlər deyirlər ki, insanın cinsiyyət orqanı kişi cinsiyyət üzvüdürsə, o kişi hesab olunur. Əgər onun cinsiyyət orqanı qadın cinsiyyət üzvüdürsə, o qadın hesab olunur.

**Sual:** Əgər insanda eyni zamanda iki cinsə aid cinsiyyət orqanı olarsa, onun kişi və ya qadın olmasını necə müəyyən etmək olar?

**Cavab:** Əgər insanda iki cinsiyyət üzvü varsa, o zaman baxılır ki, bunlardan hansı daha çox fəaliyyət göstərir. Əgər iki cinsiyyət orqanı olan şəxs kişi cinsiyyət orqanından subaşına çıxarsa, o kişi cinsindən hesab olunar. Yox əgər o şəxs qadın cinsiyyət orqanından subaşına çıxarsa, o qadın hesab olunar. Bu məsələ haqda İslam alimləri əsrlər öncə bəhs etmiş və bunun üzərində fiqh kitablarında ittifaqları qeyd olunmuşdur. İnsan övladı beş qrup cinsi nisbətlə yaradılmışdır. Bunu cinsi orientasiya da adlandlra bilərsiniz, bəziləri bu beş qrupa sonradan yaranan cinsi meyilləri əlavə etsələr də İslam dini bu məsləyə cinsi orqanın kişi və ya qadına aid olması, iki cinsiyyət orqanı olduğu halda isə hansı cinsi orqandan (sidiyin gəlməsini) subaşına çıxmağı əsas götürürlər. Bu beş qrup insan isə əvvəldə deyildiyi kimi insan ya kişi, ya da qadındır. İnsanların əksəriyyəti bu iki cinsə bölünür. Bundan xaric isə üç qism var, bu üç qism "xunsə" qrupuna daxildir. Kişi xunsə, qadın xunsə və muşkil xunsə. Xunsə sözünün mənası nə qadın, nə də

kişi olandır, ikisi arasında bir cinsdir. Lakin, xunsənin içindən kişi xunsə və qadın xunsəni ayırmaq olur. Bu isə bir orqanizmdə kişilik, yaxud qadınlıq meyillərinin üstün gəlməsi ilə ayırd edilir. Deməli kişi, qadın, xunsə kişi, xunsə qadın cinsi orientasiyaları aydln oldu. Beşinci qrup isə "xunsə muşkil" cinsi orientasiyasıdır ki, bu zaman orqanizmdə həm kişi, həm də qadın xüsusiyyətləri eyni olur. Xunsənin qadın və kişi növləri kimi orqanizmdə kişilik və ya qadınlıq xüsusiyyətləri üstün gəlmir. Belə şəxsin cinsi orientasiyası və ya İslami cəhətdən cinsi hökmünün verilməsi üçün hansı cinsi orqanın sidik kanalından subaşına çıxmasına baxılır. Kişi cinsi orqanının sidik kanalından subaşına çıxan şəxs kişi hesab olunur, qadın cinsi orqanının sidik kanalından subaşına çıxan kimsə isə qadın hesab olunur və bu hökm sabit olduqda onlar özlərini aid olmadıqları cinsə nisbət edə bilməzlər. İslam alimləri bu problemi bu cür elmi izahlar çözmüşlər.

**Sual:** Xunsə muşkil (iki cinsiyyət orqanı olan) olan şəxsin kişi və ya qadın olduğu müəyyən edildikdən sonra o şəxs öz üzərində cərrahiyyə əməliyyatı etdirərək özünə aid cinsi orqanı saxlamaq şərtilə digər əks cinsə aid cinsi orqandan azad ola bilərmi?

**Cavab:** Bəli. Əgər mütəxəssis həkimlər onun kişi olduğunu təsdiqləsə, ikinci cinsiyyət orqanı olan qadın cinsiyyət orqanının yararsız olacağı üçün onu cərrahiyyə əməliyyatı ilə aradan götürmək icazəlidir. Çünki, bu həmin şəxsin gələcəkdə evlənməsinə maneəçilik törədə

bilər və bunda şəriətin məsləhəti var. Nadir hallarda rastlanan bu hallarda həkimin icazəsi olduqdan və sağlamlığa bir zərər olmadığı təqdirdə cərrahiyyə əməliyyatı ilə digər orqanın aradan götürülməsi alimlərin daha üstün rəyinə əsasən icazəlidir. Onsuz da bir çox hallarda ikinci orqanın inkişafdan qalması və ya yararsız olduğu faktları elm sahəsində kifayət qədər məlum bir məsələdir.

**Mühüm qeyd:** Nə "xunsə", nə də "xunsə muşkil" olmaq hələ cinsi azlıqlardan olmaq mənasına gəlmir. Sadəcə xunsə elə bir kimsədir ki, o kişi və ya qadın olmaq baxımından fiziki inkişafdan geri qalmışdır. Hətta ehtimal olunur ki, bu cür insanların böyük əksəriyyəti homoseksuallıqdan tamamilə uzaqdırlar.

## 6 - LGBT probleminə qarşı İslami həll yolu.

O kəslər ki, homoseksuallıqla məşğul deyillər, lakin bu cür meyilləri var. Onlar da öz daxilində olan hislərə sahib çıxmalı və o hislərin şərrindən Allaha sığınmalıdırlar.

**Günahdan qurtulmaq iki cürdür:** Günahı tərk etsə belə günahı sevmək. Günahı tərk etmək və günaha nifrət etmək. İkinci əməl daha xeyirli və daha faydalıdır.

Bu cür əməllər İslamda günah və çirkin əməllərdən hesab olunur. İnsan öz nəfsinə hakim olmağa çalışmalı, öz nəfsinin çirkin istəklərinə və tamahlarına boyun

əyməli deyil. Həqiqətən də nəfs insana çirkin işlər görməyi əmr edər. Uca Allah buyurur: "Həqiqətən də nəfs insana pis işləri əmr edər". (Yusuf. 53). Başqa bir ayədə Uca Allah buyurur: "Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır". (Şəms. 9-10).

Artıq araşdırmada qeyd olundu ki, hər bir cinsi azlıq cinsi sapmalara yol vermir, buna xunsələri misal çəkdik. Lakin, cinsi meyilləri müxtəlif olan insanlardan, cinsi cəhətdən tibbi problemləri olan və olmayan müxtəlif insanlarda homoseksual əməllər müşahidə oluna bilər. Belə insanlar bəzən bu əməldən qurtulmaq üçün uğursuz cəhdlər də edə bilirlər. Sonra isə özlərində inanmsızlıq yaranır və bu günah əməldən heç bir zaman qurtula bilməyəcəklərini düşünürlər. Bu özü də yanlış fikirdir. Onlar Allizni və müvəffəqiyyəti ilə bu günahdan qurtula bilərlər. Bu çirkin əməli edənlərin bir çoxu özündə günah hissi keçirdir və tez-tez bu çirkin əməldən qurtulmaq istəyi duyurlar. Ən pis durumda olanlar isə artıq bu hislərə yenik düşən, öz halları ilə barışan, mübarizəni tərk edənlərdir. Deməli öz halından razı olanlar (**Ego syntonic)** və öz halından razı olmayanlar (**Ego dystonic)** var. Mütəxəssislər deyirlər ki, bu əməli edğnlərin əksəriyyəti bu çirkin əməldən qurtulmaq istəyində olanlardır. Onlar bu hislərə görə daimi əzab çəkir və narahatlıq keçirirlər. Sadəcə onların çoxusu qurtulmaq üçün müxtəlif səbəblərdən dolayı mütəxəssislərə müraciət etməkdən çəkinir, ya da laqeyd yanaşırlar.

**Homoseksuallıq problemini dörd aspektdən müalicə etmək mümkündür:** dini, əxlaqi, ailəvi, psixoloji.

***<u>1 - Dini aspektə gəldikdə;</u>*** *<u>demək olar ki, bütün dinlər bu əməlin bir çirkin əməl olduğunu bildirmişlər;</u>* Səmavi dinlərdə bu əməlin Lut qövmünün əməli olduğu məlumdur. (Xristian və yəhudilər bu qövmü "Sodom", yaxud "Gomorrah" adlandırıblar). O qövm ki, onlara sonda Allahdan bəla gəlmişdir. İslam dini isə bütün günahlardan xilas olmağın mümkün olduğunu bəyan edir. Uca Allah buyurur: "Qullarıma mənim bu sözümü de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" (əz-Zumər. 53). İnsan artıq geriyə dönüş yoxdur deyə fikirləşməli deyil. Əksinə, bilməlidir ki, Allah belə buyurur: "Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır". (Hud. 114). Səmimi bir tövbə, içdən bir yönəlmə, Allahdan bağışlanma diləmək təmizlənmə yolunun başlanğıcı ola bilər.

İslam dini günahdan birdəfəlik qurulmağın yollarını bəyan edir. Təkcə günah deyil, o günaha aparan bütün yollardan uzaq durulmalıdır. Ona görə də Uca Allah Qurani-Kərimdə zina etməyin yox, "zinaya da yaxınlaşmayın" (İsra. 32) deyə buyurmuşdur. Çünki, zinaya haram baxış da apara bilər, zinakar dostlar da apara bilər. Zinadan qurtulmaq üçün bu səbıblərdən

uzaq, olmalısan. Homoseksuallıq da bunun kimidir. İlk növbədə haram baxışlardan, ehtiras yaradacaq səbəblərdən qorunmaq, cinsi ehtiyacı halal yolla ödəmək üçün evlənmək lazımdır. Evli adam bu işləri görürsə tövbə edib Allahdan kömək və çıxış yolu istəməlidir. Həmçinin əsas məsələlərdən biri də homoseksual dostlardan, yaxud rəfiqələrdən uzaq durmaqdır. Çünki, bu əməli bir müddət tərk edən insanı homoseksual dostlar və yaxud rəfiqələr yenidən bu bataqlığa salacaqlar.

**2 - *Əxlaqi aspektə gəldikdə isə:*** Bu insanın daxilində bu günaha qarşı olan nifrət, ürpərmə və peşmançılıq hissləridir ki, bu hisslər müalicə və qurtuluş üçün əsas amillərdən hesab olunur. Çünki, insan qurtulmaq istəməsə qurtulmayacaq, bu yola can atmayacaq. Bu hisslər insanın daxilində olan salamat fitri hisslərdir ki, cəmiyyətdə, ətrafda belə çirkin əməllər edənlər olsa belə bu hisslərin silinməməsi, insanda mövcud olması müalicə və qurtuluşun mümkünlüyünə işarədir. Yetər ki, həmin şəxs niyyətində sadiq olsun və bu pis əxlaqdan qurtulmağa çalışsın. Belə bir insan bilməlidir ki, yüksək əxlaqa nail olmaq üçün pis əxlaqlı şəxslərin tərk olunması kifayət etmir, həmçinin, yüksək əxlaqlı şəxsləri insan özünə dost seçməlidir ki, daha gözəl olan əxlaqı sevsin. Uca Allah buyurur: "Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun". (Tövbə. 119).
Qəlblər belədir, insan nəyi çox görərsə, qəlbi ona öyrəşər, əxlaq isə keçicidir. Insan işin başında saleh insanlarla dostluq etməkdən sıxıla bilər, "günah

dostları"nı arzulaya bilər. Lakin, zamanla xeyirə və "saleh dostlara" öyrəşəcəkdir.

***3 - Ailəvi aspekt:*** *Bu müalicə ən mühüm tövsiyə olunan müalicələrdən biridir;* Çox zaman homoseksuallıq meyilləri gənc yaşlarda yaranır. Ona görə də bu meyilləri olanların çoxusu subay gənclər olur, çox azsaylı şəxslər evlilikdən sonra da bu pis adətlərinə davam edirlər, bu adətlər onlardan evli olanların evlilik həyatını da əzaba çevirir. Bu ayrı bir mövzudur. Lakin subay olduğu halda homoseksuallığa bulaşan kimsələrin evlənməklə bu pis adətdən qurtulmaları və cinsi ehtiyaclarını düzgün, halal yolla ödəmələri mümkündür. Muhəmməd peyğəmbər (salləllahu aleyi va səlləm) buyurmuşdur: "Sizlərdən birinin halal cinsi münasibətdə olması sədəqədir. (yəni, sədəqə vermək kimi savabdır). Dedilər: Ey Allahın Elçisi, bizdən biri öz (həyat yoldaşına) şəhvətlə yaxınlaşır və o buna görə savabmı qazanır!? Dedi: Məgər o öz şəhvətini (cinsi ehtiyacını) haram yolla ödəyərsə, günah qazanırmı? Bu da onun kimidir, onun öz ehtiyacını halal yolla ödəməsinə görə o savab qazanar. (Səhih əl-Buxari. 1005). Homoseksual meyilləri olan insan əks cinsdən evlənməlidir ki, öz cinsinə qarşı maraqları olmasın.

***4 - Psixoloji aspekt:*** Psixoloji aspektə gəldikdə bu çox mühüm amildir. Əgər homoseksual vərdişləri olan kimsə az yaşlarında ikən təcavüzə məruz qalmışdırsa, onların daha çox mənəvi dəstəyə ehtiyacları olur. Xüsusən də təcavüzdən sonra daxili aləmi alt-üst olmuş

bu şəxslər məcburən düşdükləri bu günahı sonradan istəyə bilirlər. Əgər qurtulmaq istəyi varsa və bu əmələ nifrət varsa, az öncə qeyd olunduğu kimi bu qurtuluş üçün əsas amillərdəndir. Keçmişdə nələrin baş verməsindən asılı olmayaraq insan bir sözlə yeni bir həyata başlamağa qərar verməlidir. Yenə İslamın gözəl yol göstərməsi ilə belə bir insan qəlb rahatlığı tapır və ruhu sakitləşir. Peyğəmbərin ﷺ bu kəlamı belə bir şəxsə stimul verir: "İslam özündən əvvəlkiləri (günahları) silir" (İrvaul-Ğalil, 1280). Əgər insan bir günaha səmimi tövbə edərsə, o günahı heç etməmiş kimi olar. Bundan da böyük nə təsəlli ola bilər ki?! İslam dini bunu homoseksuallara da vəd edir, bir şərtlə ki bir daha bu əmələ qayıtmasınlar, həyatlarının axırına kimi təmiz yaşasınlar, cinsi ehtiyaclarını halal yolla ödəsinlər. Bu cür insanlar İslama gəlməklə Allahın əmr və qadağalarına riayət etməklə güclü bir iradə və əzmkarlıq əldə edə bilərlər. Keçmişdə olanla deyil, gələcəkdə olanla yaşamaq lazımdır. Əgər keçmiş əməllərə bir daha qayıtmayacaqsansa, deməli həyatında yeni bir mərhələ başlamışdır. Belə bir insanın İslamla həyatı elə gözəlləşə bilər ki, İslamda tapdığı mənəvi, psixoloji ləzzəti heç bir yerdə tapmadığına özü şahidlik edəcəkdir!

- Sonda müalicə metodlarını müxtəsər qeyd etdikdən sonra cinsi azlıqların cinsi sapıqlıqlardan xilas olması üçün bir ömür çalışan bir mütəxəssis həkim **Jozef Nikolosinin** məsləhətləri ilə də tanış olmağı tövsiyə edirik.

Kaliforniyada yaşamış bu həkim ömrünü 70 yaşında (2017-ci ildə) vəfat etmişir. O cinsi sapıqlıqların müalicəsi üçün böyük işlər görmüşdür. O "Milli araşdırmalar və cinsi azlıqların müalicəsi" mərkəzinin qurucusu və rəhbəri olmuş və bir çox homoseksualların yenidən cəmiyyətə qayıtmalarına, sağalmalarına vəsilə olmuş, bu sahədə uğur qazanmışdır. Müalicə əsnasında onun uğurlu metodlarından da istifadə etmək mümkündür. Bu sahədə bir çox kitabların müəllifidir. Bu kitablardan;

**1 -** Cinsi azlıqları islah edici əlac - yeni başlanğıc. (Reparative Therapy of Male Homosexuality: A New Clinical Approach).
**2 -** Cinsi azlıqların şəfası - islahi sağalma halları haqqında hekayələr. (Healing Homosexuality: Case Stories of Reparative Therapy).
**3 -** Cinsi azlıqların müalicəsi arxasında olan təhlilin ərz edilməsi - bəyannamə. (A meta-analytic review of treatment of homosexuality).
**4 -** Cinsi azlıqların qarşısının alınmasının təmin edilməsi üçün yol göstəricisi. (A Parent’s Guide to Preventing Homosexuality).
**5 -** Utanc və bağlılq itkisi - islahi müalicə üçün hazırlıq işi. (A Parent’s Guide to Preventing Homosexuality).

## İstifadə edilmiş mənbələr:


**1 -** Qurani-Kərim.

**2 -** Məqalə: Adam necə homoseksual olur? (Həkim və homoseksualın dəyərləndirməsi). Qafqazinfo.az saytı. Kamilə.
(https://konulsadullaqizi.wordpress.com/2017/11/17/x%C9%99st%C9%99likyoxsa-s%C9%99xsi-secim-lgbt/)

**3 -** (Ceffri Satinover. Homoseksuallıq və Həqiqət Siyasəti... - Çörəkçi Kitabları, 1996-02-01. - 424 s. - ISBN 9781441212931. pro-lgbt.ru saytı, "Qiçs və homoseksuallıq").

**4 -** *Homoseksuallıq xəstəlik deyil, əxlaqsızlıqdır. Nəzakət Bədirova*. Ovqat.com

**5** - Məqalə: e-tibb.az saytı. Adı: Homoseksual olmaqda ailənin və yetişmə tərzinin rolu varmı?

**6** - Məqalə: ilmə.az saytı. Homoseksuallıq xəstəlikdir?.

**7** - Ərəbcə məqaləni: مس العاشق şeyx Xalid Həbşinin saytı. www.alroqya.com

**8 -** Məqalə (ərəbcə): Fransız məscidinin imamı: "İslam homoseksuallığı qadağan etməyib" başlıqlı məqalə. www.dw.com saytı. Ərəbcəsi: إمام مسجد فرنسي: "الإسلام لم يحرم المثلية الجنسية"

**9** - Məqalə: "Doğurdan da heyvanlarda homoseksuallıq halları varmı?" هل! فعلا يوجد شذوذ جنسي في الحيوانات؟ Dr. Heysəm Talat. Misirli həkim, ateizm məsələləri üzrə mütəxəssis.

**10 -** أشهر الطرق العملية لعلاج الشذوذ الجنسي سلوكياً

Məqalə: Cinsi azlıqların əxlaqi müalicəsi üçün ən məşhur praktiki metodlar. (ərəbcə). [Muslims-res.com](Muslims-res.com) saytı.

**11** - İbnul-Huməmin "Fəthul-Qadir" əsəri.

**12** - İbn Abidinin "Raddul-Muhtər alə durril-Muxtər" əsəri.

**13** - İmam Əhmədin "əl-Müsnəd" əsəri

**14** - Tirmizinin "əs-Sünən" əsəri.

**15** - Əbu Davudun "əs-Sünən" əsəri.

**16** - İbn Macənin "əs-Sünən əsəri.

**17** - əl-Cavab əl-Kəfi limən sə'ələ anid-dəva əş-şəəfi. İbn Qeyyim.

**18** - ər-Rahmətu vəl-Hudud, əynər-Rahmətul-İləhiyyəti fil-Hududiş-Şər'iyyəti? Nasir Abdul-Kərim. Səh 49.

**19** - İbn Cərir ət-Təbərinin təfsiri olan "Cəmiul-Bəyən" əsəri.

**20** - Muhəmməd ibn İsməil əl-Buxari, "Səhih-əl-Buxari".

**21** - Küveyt fiqhi ensiklopediyası. الموسوعة الفقهية الكويتية

**22** - Dr. Osman Xamisin video çıxışı: هل يجوز تحويل الجنس من ذكر إلى أنثى والعكس بالعمليات Videonun linki: https://youtu.be/N_TBCP-rg8Q

**23** - Muhəmməd Nasiruddin Albani. "İrvaul-Ğalil".

**24** - Ceffri Satinover. Homoseksuallıq və Həqiqət Siyasəti.

**Kitabın içindəkilər**

Giriş……………………………………………………....1
LGBT sözünün mənası nədir?................................2
LGBT üzvləri xəstə sayılırlarmı?............................2
Homoseksuallığın xəstəlik olduğunu deyənlər………….4
Hormon pozğunluğu………………………………..……...5
Şəxsi seçim məsələsi……………………………………….6
Gizli bir səbəb (cinlər)..................................................8
Bəziləri heyvanlarda olan homoseksual davranışlar haqda şübhəyə cavab………………………………………..9
Xəstəlik mövzusunda bir iddiaya cavab………………..10
LGBT üzvlərinə İslami münasibət necə olmalıdır?........11
Homoseksuallığın cəzası haqda İslam alimlərinin görüşləri……………………………………………………...14
Homoseksuallığın zinadan daha şiddətli əməl olub-olmaması haqda alimlərin üç görüşü…………….15
İslamın homoseksuallığa qarşı tətbiq etdiyi cəza insanın azadlığına, hüquqlarına, şəxsi seçiminə qarşı hörmətsizlikdirmi?......................................................16
"İslamda da homoseksuallıq var" deyənlərin şübhələrinə cavablar……………………………………………………18
Kim belə əməlləri arzu etsə axirətdə də ona bu kimi (homoseksual) əməllər qadağan olacaq?...................24
Homoseksuallığın zərərləri………………………………24
İslamda cinsi dəyişməyin hökmü nədir?......................27
Əgər insanda eyni zamanda iki cinsə aid cinsiyyət orqanı olarsa, İslama görə onun kişi və ya qadın olması necə müəyyən olunur?................................................28

Kişi və ya qadın olduğu müəyyən edildikdən sonra həmin şəxs öz üzərində cərrahiyyə əməliyyatı etdirərək özünə aid cinsi orqanı saxlamaq şərtilə digər ikinci əks cinsə aid cinsi orqanını aradan götürə bilərmi?............29
LGBT probleminə qarşı İslami həll yolu……….……...30
Cinsi azlıqların müalicəsi sahəsində mütəxəssis Jozef Nikolosi…………………………………………………35
İstifadə edilmiş ədəbiyyat………………………………..37
Kitabın içindəkilər…………………………………………40